# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 5 avqust 2024-cü il

№ 375

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 avqust tarixli 375 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların**

**S İ Y A H I S I**

| Sıra №-si | Məlumatların adı |
|---|---|
| **1.** | **Taksi minik avtomobili barədə məlumat** |
| 1.1. | Dövlət qeydiyyat nişanı |
| 1.2. | Markası |
| 1.3. | Modeli |
| **2.** | **Taksi sifarişi operatoru barədə məlumat** |
| 2.1. | Hüquqi şəxsin adı, hüquqi ünvanı, fərdi sahibkarın adı, soyadı, atasının adı, yaşayış ünvanı və fərdi identifikasiya nömrəsi |
| 2.2. | Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi |
| 2.3. | Taksi sifarişləri üzrə əldə edilmiş xidmət haqqı məbləği (manatla) |
| **3.** | **Sürücü barədə məlumat** |
| 3.1. | Adı, soyadı, atasının adı |
| 3.2. | Fərdi identifikasiya nömrəsi |
| 3.3. | Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi |
| 3.4. | Sifarişçilərdən qəbul edilmiş cəmi gediş haqqı məbləği (manatla), o cümlədən: |
| 3.4.1. | nağdsız ödənilmiş məbləğ (manatla) |
| 3.4.2. | nağd ödənilmiş məbləğ (manatla) |
| 3.5. | Əldə edilmiş gəlir məbləği (manatla) |
| **4.** | **Məlumatın aid olduğu dövr (il, ay);** |
| 4.1. | İl |
| 4.2. | Ay |

**Qeyd.**

Taksi sifarişi operatorları tərəfindən aylıq məlumatlar hər bir taksi minik avtomobili üzrə təqdim edilir.

---

____№-li nüsxə